

# «Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2008-ci il 2 iyun tarixli, 619-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2008-ci il 2 iyun tarixli, 619-IIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının «Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2008-ci il 2 iyun tarixli, 619-IIIQD nömrəli Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinin 2-ci hissəsinin 3-cü və 4-cü bəndlərini nəzərə alaraq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və ya Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən dövlət qeydiyyatının aparılması göstərilməklə həmin bəndlərdə qeyd olunan nəqliyyat vasitələrinin siyahısını təsdiq etsin;

1.4. öz səlahiyyətləri daxilində «Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2008-ci il 2 iyun tarixli, 619-IIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinin 2-ci hissəsinin 3-cü bəndində nəzərdə tutulmuş «müvafiq icra

hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi həyata keçirir;

2.2. həmin Qanunun 27-ci maddəsinin 2-ci hissəsinin 4-cü bəndində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi həyata keçirir.

3. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 20 iyun 2008-ci il***

***№ 783***